# مقدمة المختصر وربع يس - عام

"Əl-Muxtəsar" və "Rub'u Yəsin" 1 kitabına giriş və Rub'u Yəsinin azərbaycan dili üçün fərqləri

1 Quranın Yasin surəsindən başlayaraq dörddə bir hissəsinə deyilir

Müqəddimənin azərbayacan dilinə tərcüməsi

Kitabı quluna nazil edən və onda heç bir nöqsana yol verməyən Allaha həmd olsun, Peyğəmbərimiz Məhəmmədə, onun ailəsinə, səhabələrinə və qiyamət gününə qədər xeyirdə onlara tabe olanlara salavat və salam olsun!... Daha sonra :

İnsanın bütün həyatı boyu etdiyi ən böyük səyahət, Uca və Pak olan Allahın kəlamı ilə etdiyi səyahətdir.

Qurani-Kərim:

Uca və Pak olan Yaradana nisbətində heç bir şübhə olmayan yeganə səmavi kitabdır. Uca Allah buyurur:

ذَٰلِكَ الْكِتَابُ لَا رَيْبَ ۛ فِيهِ

Bu kitabda heç bir şübhə yoxdur.

[Əl-Bəqərə:2]

Bütün bəşəriyyət üçün xoşbəxtlik, xeyir, əmin-amanlıq və rahatlığın bütün səbəblərini toplayan kitabdır. Uca Allah buyurur:

إِنَّ هَٰذَا الْقُرْآنَ يَهْدِي لِلَّتِي هِيَ أَقْوَمُ

Həqiqətən, bu Quran ən doğru yola yönəldir.

[əl-İsra:9]

Uca Allah bu kitab haqqında belə buyurmuşdur:

لَّا يَأْتِيهِ الْبَاطِلُ مِن بَيْنِ يَدَيْهِ وَلَا مِنْ خَلْفِهِ ۖ تَنزِيلٌ مِّنْ حَكِيمٍ حَمِيدٍ

Ona nə önündən, nə də arxasından batil yol tapa bilməz. O hikmət sahibi və tərifə layiq olan (Allah) tərəfindən nazil edilmişdir.

{Fussillət: 42}

Bu kitab, dəyişilmədən, əlavə və nöqsandan qorunmasını Yaradanın öz üzərinə götürdüyü bir kitabdır. Uca Allah buyurur:

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

Şübhəsiz ki, Zikri Biz na-zil etdik və sözsüz ki, Biz də onu qo-ruya-ca-ğıq.

{əl-Hicr: 9}

Bu, Allahın bütün bəşəriyyətə xitabı olan bir kitabdır. Uca Allah buyurur:

إِنْ هُوَ إِلَّا ذِكْرَىٰ لِلْعَالَمِينَ

Bu (Quran) aləmlərə ancaq xatırlatmadır.

{Sad: 87}

Bu, əhatə etdiyi nəzmindəki möcüzələri ilə, qeybi və aşkar aləmlər haqqında verdiyi xəbərlərlə, öz dini qanunları ilə, insan və cinlərə (qurana bənzərini gətirə bilməyəcəkləri haqqında) meydan oxuması ilə Məhəmmədin (Allahın salavatı və salamı onun üzərinə olsun) peyğəmbərliyinə qəti dəlili təmsil edən kitabdır. Uca Allah belə buyurmuşdur:

قُل لَّئِنِ اجْتَمَعَتِ الْإِنسُ وَالْجِنُّ عَلَىٰ أَن يَأْتُوا بِمِثْلِ هَٰذَا الْقُرْآنِ لَا يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا

De: “Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər”.

[İsra: 88].

Qurani-Kərim etibarlı mələk Cəbrail (Allahın salamı onun üzərinə olsun) vasitəsilə Məhəmmədin (Allahın salavatı və salamı onun üzərinə olsun) qəlbinə açıq-aydın ərəb dilində nazil olmuşdur, Uca Allah buyurur:

وَإِنَّهُ لَتَنزِيلُ رَبِّ الْعَالَمِينَ * نَزَلَ بِهِ الرُّوحُ الْأَمِينُ * عَلَىٰ قَلْبِكَ لِتَكُونَ مِنَ الْمُنذِرِينَ * بِلِسَانٍ عَرَبِيٍّ مُّبِينٍ *

Heç şübhəsiz, bu (Quran) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir.

Onu Ruhul-əmin (Cəbrail) endirdi.

Sənin qəlbinə endirdi ki, xəbərdar edənlərdən olasan.

Açıq-aydın ərəb dilində!

[Şuəra: 192-195].

Məhəmməd Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Uca Allah buyurduğu kimi Qurani-Kərimin sözlərini çatdırmış və mənasını da bəyan etmişdir, Uca Allah buyurur:

وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ

Sənə də zikri (Quranı) nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən.

[Nəhl: 44]

Beləliklə, Qurani-Kərimin ən mühüm xüsusiyyətlərindən biri, onun mənasının asanlıqla başa düşülməsi və oxunuşunun asan olmasıdır, Uca Allah buyurur:

وَلَقَدْ يَسَّرْنَا الْقُرْآنَ لِلذِّكْرِ فَهَلْ مِن مُّدَّكِرٍ

Həqiqətən, Biz Quranı ibrət almaq üçün asanlaşdırdıq. Bəs ibrət alan varmı?

[Əl-Qəmər: 17].

Möhtərəm səhabələr (Allah onlardan razı olsun) vəhy zamanında yaşadıqları və onu Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) götürdükləri üçün Qurani-Kərimi elm və əməl baxımından ən yaxşı bilən nəsil idi. Ərəb dili insanlar arasında zəiflədikdə və vəhy vaxtından uzaqlaşdıqca, insanların, Uca Allahın kəlamını onlar üçün şərh edəcək kəslərə ehtiyacları çoxaldı. Beləliklə də, müxtəlif istiqamətlərdə təfsir kitabları meydana çıxdı, bununla da, bilərək və ya bilməyərək bəzi yanlış izahlar ortaya çıxdı.

Bu dövrdə düzgün və asan olmağı hədəfləyən qısa təfsirə ehtiyac var, ona görə də bu layihə:

“Qurani-Kərimin müxtəsər (qısa) təfsiri” adlanır.

(Bu təfsir) aşağıdakı xüsusiyyətləri özündə birləşdirir:

İfadələrinin aydın və asan anlaşılan olması.

Qiraət, qrammatik təhlil, fiqh və bu kimi digər məsələlərə girmədən ayələrin təfsiri və mənalarını izah etməklə kifayətlənmək.

Təfsir əsnasında bəyan edilməsinə ethiyac duyulan Quranın ləfzlərinin izahı.

Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) səhih olaraq gəlmiş təfsirə, səhabələrin, tabiinlərin və onların ardıcıllarının (Allah onlardan razı olsun) təfsirlərinə etimad edərək və düzgün təfsir qaydalarına əsaslanaraq təfsirdə doğru metoda tabe olmaq.

Təfsirçilər nəzdində təfsir qaydalarına və üstün görüş seçimin dəlillərinə riayət edərək, fikir ayrılığı zamanı doğru olması ən çox ehtimal olunan mənanı müəyyən etmək.

Ayələri daha yaxşı başa düşmək və onlardan tam faydalanmaq üçün bəzi ayələrin yol göstəriciliyi və faydaları hər səhifənin aşağısında "Ayələrdən əldə edilən faydalar" ünvanı altında qeyd etmək.

Hər bir surənin əvvəlində onun nazil olma vaxtını (Məkkə və ya Mədinəni) və ən mühüm məqsədlərini qısa şəkildə bəyan etməklə təqdim etmək.

Bu tərcüməni Qurani-Kərimin haşiyəsinə yazmaq.

Bu müxtəsər təfsiri yazmaq, nəzərdən keçirmək, möhkəmlətmək və ona nəzarət etmək vəzifəsini İslam dünyasının bir neçə ölkəsindən olan təfsir və əqidə üzrə ixtisaslaşmış bir qrup seçmə alimlər öz üzərinə götürmüşdür.

Bu layihənin məqsədlərinə nail olmaq və onu bütün dünyaya yaymaq, Qurani-Kərimin yolunu

bütün insanlara çatdırmaq vəzifəsini yerinə yetirmək, bu dünyada xoşbəxtlik, mərhəmət, təhlükəsizlik və sükunət prinsiplərinin yayılmasına töhfə vermək üçün səy göstərilərək bu müxtəsər təfsirin tərcümə işi azərbaycan dilinə tamamlanmışdır.

.

Bu layihənin isnadı:

"Ruvvəd Tərcümə Mərkəzi" nə aiddir.

Bu (layihə), bu dildə danışanlara Quranın mənalarını asan və rahatlıqla başa düşməklərinə yardım etmək  və ona əməl etmək üçün Quranın mənalarını çatdırmağı hədəfləyir.

Tədqiqində, incələnməsində və yoxlanılmasında böyük zəhmət çəkilmiş, oxucular üçün uyğun, elmi xətalardan uzaq, bu dildə oxuyan hər kəs üçün rahat, asan başa düşüləcək bu tərcümə ilə Allahın bu uca hədəfi reallaşdırmasını ümid edirik.

Və son olaraq

Bu, “Qurani-Kərimin Müxtəsər Təfsirinin ”nin azərbaycan dilinə tərcüməsinin birinci/ikinci nəşridir ki, biz onu aşağıdakı mərhələlərdən keçirərək tərcümə etməyə səy göstərdik:

Tərcümə.

Dil cəhətdən yoxlama.

Şər'i cəhətdən yoxlama.

Etimad və çap.

Səhvləri düzəltmə və təkmilləşdirmə.

Biz bacardığımız qədər doğru olanı axtardıq və bacardığımız qədər kamilliyə nail olmaq üçün çalışdıq və doğru olan hər şey Allahın lütfü və müvəffəqiyyəti ilədir, səhv olan isə özümüzdəndir. Uca Allahdan xətalarımızı bağışlamasını, bu tərcüməni faydalı və insanlar tərəfindən qəbul görülən etməsini istəyirik. O, istəklərimizi yerinə yetirən ən səxavətli olan və ən çox ümid ediləndir.

Bu tərcüməni qiymətləndirmək və səhvləri düzəltmək üçün səy göstərən hər kəsə təşəkkür edir və "Qurani-Kərimin Müxtəsər Təfsirinin"nin tərcümələri üçün olan elektron platformada onun təkmilləşdirilməsi üçün hər hansı qeyd və ya təklifinizi bizə bildirməyinizi xahiş edirik.

www.mokhtasr.com

və ya elektron poçt:

translate@mokhtasr.com

Elmi Komitə

Surələrin adlarının mündəricatı

Onlardan Məkki və Mədəni surələrinin bəyanı

Surə

Nömrəsi

Səhifə

Qurani Kərimin müxtəsər təfsiri

Fatihə və Yəsin surəsindən başlayaraq Quranın dörddə biri

Ərəbcə mətn

Tərcümə

"Qurani-Kərimin Müxtəsər təfsiri" kitabından Fatihə surəsi və Yəsin surəsindən başlayaraq Quranın dörddə biri

Tərcüməsi

Bütün hüquqlar qorunur.

Tərcüməsi

"Dərul-Muxtəsar" Nəşriyyatı və Yayımı üçün

Tərcüməsi

Birinci nəşr

Hicri 1445 - miladi 2023

Tərcüməsi

Xeyriyyə və kommersiya təşkilatları üçün xüsusi nəşrlərə "Dərul-Muxtəsar Nəşriyyatı və Yayımı"-dan yazılı razılıq alındıqdan sonra icazə verilir.

Tərcüməsi

Səudiyyə Ərəbistanı Krallığı- Məkkə Əl-Mukərrəmə

Tərcüməsi

Mərhəmətli və Rəhimli Allahın adı ilə

Tərcüməsi

Müqəddimə

Tərcüməsi

Kitabı quluna nazil edən və onda heç bir nöqsana yol verməyən Allaha həmd olsun, Peyğəmbərimiz Məhəmmədə, onun ailəsinə, səhabələrinə və qiyamət gününə qədər xeyirdə onlara tabe olanlara salavat və salam olsun!... Daha sonra :

Quranın ayələrinin mənalarını oxucu  kütləsinə çatdırmaq cəhdiylə və onların xüsusi olaraq

istəkləri üzərinə : "Əl-Muxtəsar fi Təfsir əl-Quran əl-Kərim"in azərbaycan dilinə tərcüməsindən "Əl-Fatihə və  Rub'u Yəsin" ortaya çıxarılmışdır. Bu işi yerinə yetirənlər aşağıdakı xüsusiyyətləri cəm etməyə cəhd etdilər:

İfadələrinin aydın və asan anlaşılan olması.

Qiraət, qrammatik təhlil, fiqh və bu kimi digər məsələlərə girmədən ayələrin təfsiri və mənalarını izah etməklə kifayətlənmək.

Təfsir əsnasında, bəyan edilməsinə ethiyac duyulan Quran ləfzlərinin izahı.

Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) səhih olaraq gəlmiş təfsirə, səhabələrin, tabiinlərin və onların ardıcıllarının (Allah onlardan razı olsun) təfsirlərinə etimad edərək və düzgün təfsir qaydalarına  əsaslanaraq təfsirdə doğru metoda tabe olmaq.

Təfsirçilər nəzdində təfsir qaydalarına və üstün görüş seçimin dəlillərinə riayət edərək, fikir ayrılığı zamanı doğru olması ən çox ehtimal olunan mənanı müəyyən etmək.

Ayələri daha yaxşı başa düşmək və onlardan tam faydalanmaq üçün bəzi ayələrin yol göstəriciliyi və faydaları hər səhifənin aşağısında “Ayələrdən əldə edilən faydalar” ünvanı altında  qeyd etmək

Hər bir surənin əvvəlində onun nazil olma vaxtını (Məkkə və ya Mədinəni) və ən mühüm məqsədlərini qısa şəkildə bəyan etməklə təqdim etmək.

Yuxarıdakıların hamısını toplayıb “Rub'u Yəsin” mətninin haşiyəsində yazmaq.

Biz Uca Allahdan müvəffəqiyyət və bu əməli qəbul eməsini diləyirik. Bu tərcüməni qiymətləndirmək və səhvləri düzəltmək üçün səy göstərən hər kəsə təşəkkür edir və “Qurani-Kərimin Müxtəsər Təfsirinin”nin tərcümələri üçün olan elektron platformada onun təkmilləşdirilməsi üçün hər hansı qeyd və ya təklifinizi bizə bildirməyinizi xahiş edirik.

www.mokhtasr.com)

www.mokhtasr.com

və ya elektron poçt:

(translate@mokhtasr.com)

translate@mokhtasr.com

“Bəqərə” surəsini “Yəsin” surəsi ilə əvəz etməklə və lazım olan şeyləri dəyişdirərək “Rub’u Yəsin”də keçən muqatta hərflərinin tərcüməsini düzəltməyi ümid edirik.

Ərəbcə mətn

Tərcümə

(يس) Bu Quranın bəzi surələrinin başladığı hərflərdir, bunlar əlifba hərfləri olub, tək gəldikdə özlüyündə heç bir məna daşımayan (أ، ب ،ت، إلخ) hərflərdir ki, onların hikmət və bir mənası vardır, çünki, Quranda hikməti olmayan heç bir şey yoxdur. Bu hərflərin ən mühüm hikmətlərindən biri: Bildikləri və danışdıqları eyni hərflərdən ibarət olan Quranla onlara meydan oxumağa işarə;

buna görə də bu surədə olduğu kimi, adətən bu hərflərdən sonra Qurani-Kərim haqqında danışılır.

(ص) Yəsin surəsinin əvvəlində muqatta hərfləri haqqında danışıldı. İnsanlara dünyada və axirətdə fayda verəcək şeyləri xatırlatmağı əhatə edən Qurana and olsun ki, müşriklərin zənn etdiyi kimi Allahla yanaşı şəriklərinin olması (həqiqət) deyil.

(حم) Yəsin surəsinin əvvəlində muqatta hərfləri haqqında danışılmışdır.

(حم) Yəsin surəsinin əvvəlində muqatta hərfləri haqqında danışılmışdır.

1-2(حم، عسق)

Yəsin surəsinin əvvəlində muqatta hərfləri haqqında danışılmışdır.

(حم)Yəsin surəsinin əvvəlində muqatta hərfləri haqqında danışılmışdır.

(حم)Yəsin surəsinin əvvəlində muqatta hərfləri haqqında danışılmışdır.

(حم)Yəsin surəsinin əvvəlində muqatta hərfləri haqqında danışılmışdır.

(حم)Yəsin surəsinin əvvəlində muqatta hərfləri haqqında danışılmışdır.

(ق)Yəsin surəsinin əvvəlində muqatta hərfləri haqqında danışılmışdır. Uca Allah Qurani-Kərimin ehtiva etdiyi mənalarına və xeyir və bərəkətinin çoxluğuna görə ona and içmişdir; Şübhəsiz ki, siz qiyamət günü haqq-hesab və əməllərinizin qarşılığını almaq üçün dirildiləcəksiniz.

(ن)Yəsin surəsinin əvvəlində muqatta hərfləri haqqında danışılmışdır. Allah qələmə və insanların qələmləri ilə yazdıqlarına and içmişdir.

**Mündəricat**

No table of contents entries found

az365v1.0 - 04/09/2026